# "Azərbaycan üçün öyrət" təhsil proqramı ilə bağlı əməkdaşlıq haqqında memorandum imzalanıb






Aprelin 19-da Təhsil Nazirliyinin və "Kapital Bank" ASC-nin dəstəyi ilə həyata keçirilən "Azərbaycan üçün öyrət" proqramının təqdimatı keçirilib.

Təqdimat mərasimində Təhsil Nazirliyi və "Kapital Bank" ASC arasında proqramla bağlı əməkdaşlıq haqqında memorandum imzalanıb.

Tədbirdə şagirdlərin daha çox öyrənmək istəyini əks etdirən, həmçinin "Azərbaycan üçün öyrət" (www.facebook.com/tfa.az; elektron poçt: info@tfa.az) yeni təhsil proqram ilə bağlı videoçarx göstərilib.

Proqramin təqdimatında bildirilib ki, "Azərbaycan üçün öyrət" proqramı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, ümumtəhsil məktəblərində keyfiyyətli təhsil üçün bərabər imkanlar yaradır. Proqramin məqsədi təhsilin keyfıyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına imkan yaradılması, əlavə təhsil ilə şagirdlərin bilik və dünyagörüşlərinin artırılmasıdır. Proqram, həmçinin şagirdlərin dərsə olan maraq və həvəsini artırmağa xidmət edir.

Təhsil naziri Mikayıl Cabbarov "Azərbaycan üçün öyrət" proqramının əhəmiyyəti barədə fikirlərini bildirib. Qeyd olunub ki, Təhsil Nazirliyi zəif nəticə göstərən məktəblər üçün xüsusi layihələrin hazırlanmasına diqqət yetirir. Elə bölgələrimiz və məktəblərimiz var ki, onlar ümumrespublika göstəricilərindən xeyli dərəcədə aşağı nəticələr göstərirlər. "Azərbaycan üçün öyrət" layihəsi, ilk növbədə, ümumi nəticələri respublika səviyyəsindən daha aşağı olan məktəblər, yaxud akademik nailiyyətləri daha zəif olan şagirdlər üçün nəzərdə tutulub. Proqram pilot olaraq Bakı, Gəncə, Lənkəran, Şəki və Quba şəhərlərində yerləşən ümumtəhsil məktəblərinin şagirdlərini əhatə edəcək. Proqram vasitəsilə yeni tədris yanaşmaları tətbiq ediləcək, beynəlxalq və yerli səviyyədə təcrübə mübadiləsi aparılacaq.

Milli Məclisin deputatı Bəxtiyar Əliyev və "Kapital Bank" ASC-nin idarə heyətinin sədri Rövşən Allahverdiyev müasir təhsil sistemindən, ölkəmizdə bu istiqamətdə həyata keçirilən islahatlardan söz açıblar. Çıxış edənlər proqramın uğurla həyata keçiriləcəyinə əminliklərini bildiriblər.

Sonda Təhsil Nazirliyi və "Kapital Bank" arasında proqramla bağlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi təhsil nazirinin müavini Ceyhun Bayramov və "Kapital Bank"ın idarə heyəti sədrinin birinci müavini Fərid Hüseynov imzalayıblar.